**AZƏRBAYCAN RESPUBLİKASI**

**AUDİTORLAR PALATASI ŞURASININ**

**Q Ə R A R I**

**Bakı şəhəri** **№ 210/2** **«05» avqust 2010-cu il**

**Auditorlar Palatasının Keyfiyyətə Nəzarət Komitəsinin yaradılması barədə**

Auditorlar Palatasının Beynəlxalq Mühasiblər Federasiyası qarşısındakı üzvlük öhdəliklərinin yerinə yetirilməsi, auditin keyfiyyətinə nəzarətin qabaqcıl dünya təcrübəsinə əsasən təkmilləşdirilməsi və Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2009-cu il 29 may tarixli 200/1 saylı "Auditin keyfiyyətinə nəzarətə dair Əsasnamənin tətbiqi ilə əlaqədər tədbirlərin həyata keçirilməsi barədə" qərarının icra edilməsi məqsədilə Palata tərəfindən Keyfiyyətə nəzarət Komitəsinin tərkibini formalaşdırmaq üçün Auditorlar Palatası Şurası

**Q Ə R A R A A L I R:**

1. Azərbaycan Respublikasının Auditorlar Palatası Şurası yanında Keyfiyyətə nəzarət Komitəsi aşağıdakı tərkibdə yaradılsın:

- Abbasov Maarif Qurban oğlu, Auditorlar Palatasının Auditin tənzimlənməsi, təşkili və şəffaflığın təminatı idarəsinin rəisi - Komitənin sədri;
- Bayramov İslam Qurban oğlu, «Kapital-Audit LTD» MMC-nin direktoru, Auditorlar Palatasının Auditin tənzimlənməsi, təşkili və şəffaflığın təminatı idarəsinin rəisi - Komitənin sədr müavini;
- Gülməmmədov Səbuhi Yediyar oğlu, Auditorlar Palatasının Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsinin rəisi - Komitənin üzvü;
- Hüseynov Zamin Ramazan oğlu, «MAK Azərbaycan LTD» MMC-nin direktoru - Komitənin üzvü;
- Cəfərov Altay Mürsəl oğlu, Sərbəst auditor - Komitənin üzvü;
- Məmmədov Nurəli Əmralı oğlu, Azərbaycan Respublikası Vergilər Nazirliyinin Daxili təhlükəsizlik baş idarəsinin rəis müavini, baş vergi xidməti müşaviri - Komitənin üzvü (təqdimata əsasən);
- Hüseynov Ramin Şəhadət oğlu, Azərbaycan Respublikası Mərkəzi Bankının Kredit təşkilatlarının fəaliyyətinə nəzarət departamentinin Xarici nəzarət şöbəsinin rəisi- Komitənin üzvü (təqdimata əsasən).

2. Keyfiyyətə nəzarət Komitəsinin rəhbərliyinə (M.Abbasov, İ.Bayramov) tapşırılsın ki, komitənin müfəttişlərini təyin etmək məqsədilə, 10 gün ərzində müfəttişliyə və ehtiyyat müfəttişliyə namizədlərinin siyahısını təqdim etsinlər.
3. Bu qərar Auditorlar Palatasının internet saytında yerləşdirilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**